## *BAŞ REDAKTORDAN*
## *ОТ ГЛАВНОГО РЕДАКТОРА*
## *FROM THE EDITOR İN CHIEF*

**UOT 371**

***Akif Nurağa oğlu Abbasov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*
*https://orcid.org/ 0000-0002-9210-7141*

# MİLLİ RUHDA TƏRBİYƏ ÜZRƏ İŞİN VACİBLİYİ

***Акиф Нурага оглу Аббасов***
*ученый секретарь Института Образования Азербайджанской Республики.*
*доктор наук по педагогики, профессор, заслуженный учитель*

# ВАЖНОСТЬ ВОСПИТАНИЯ ЛИЧНОСТИ В НАЦИОНАЛЬНОМ ДУХЕ НЕОБХОДИМОСТЬ РАБОТЫ ПО НАЦИОНАЛЬНОМУ ВОСПИТАНИЮ

***Akif Nuragha Abbasov***
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan.*
*doctor of sciences in pedagogy, professor, Honored teacher*

# THE İMPORTANCE OF UPBRİNGİNG A PERSON İN THE NATİONAL SPİRİT

**Xülasə**. Milli tərbiyənin vəzifələri xalqın sosial təcrübəsini, zəngin mənəvi mədəniyyətini, milli mentalitetini gənc nəslə ötürməkdən və bu əsasda Azərbaycan vətəndaşının şəxsiyyət xüsusiyyətlərini formalaşdırmaqdan ibarətdir. Nəticədə uşaq və yeniyetmələrdə mənəviyyat inkişaf edir, onlarda əxlaqının saflaşması baş verir, milli özünüdərk, əxlaqi, bədii-estetik, hüquqi, əmək, fiziki, ekoloji mədəniyyəti təşəkkül tapır.
***Açar sözlər:*** *tərbiyə, milli tərbiyə, milli mənəvi dəyərlər, azərbaycançılıq, azərbaycançılıq ideyası*

**Резюме**. Задачи национального воспитания является передача подрастающему поколению социального опыта, богатой духовной культуры народа, его национальной ментальности, родства мировоззрения и на этой основе формирование личностных черт гражданина Азербайджана, которые предусматривают развитую духовность, национальное самосознание, моральную, художественно-эстетическую, правовую, трудовую, физическую, экологическую культуру.
***Ключевые слова:*** *воспитание, национальное воспитание, национальные нравственные устои, азербайджанство, идеи азербайджанства*

**Summary.** The objectives of national education is to transmit to the younger generation of social experience, the rich spiritual culture of the people, its national mentality, kinship ideology and on that basis, the formation of personality traits of a citizen of Azerbaijan, which envisages the development of spirituality, national identity, moral, artistic, aesthetic, legal, labor, physical , ecological culture
***Keywords:*** *upbringing, national upbringing, national moral values, azerbaijanism, ideas azerbaijanism*

Şəxsiyyətin təşəkkül tapıb formalaşmasında digər amillərlə yanaşı tərbiyə prosesinin müstəsna dərəcədə böyük rolu vardır. Peyğəmbərimiz həzrəti Məhəmməd əleyhissəlam (s.ə.s.) buyururdu ki, "Tərbiyə valideynin öz övladına verdiyi ən böyük hədiyyədir".

Bu, uzaqgörənliklə, müdrikcəsinə deyilmiş qiymətli fikirdir. Hər bir şəxs – istər yaşlı,

istərsə də cavan, yaxud uşaq olsun – həmişə tərbiyəyə möhtacdır.

İnsanların bir-biri ilə ünsiyyəti, qarşılıqlı münasibətləri, yaşayış uğrunda mübarizəsi prosesində birgə fəaliyyət göstərməyin zəruriliyi tərbiyənin meydana gəlməsinə səbəb olmuşdur.

"Tərbiyə bioloji hadisədir" (*yəni heyvanlar aləmində də tərbiyə mövcuddur*) və tərbiyə psixoloji hadisədir (*yəni balacaların böyükləri, övladların öz valideynlərini təqlid etməsindən başqa bir şey deyil*) deyənlərin əksinə olaraq, qabaqcıl fikirli adamlar, mütərəqqi filosof, psixoloq və pedaqoqlar, o cümlədən Azərbaycan alimləri tərbiyəyə ictimai hadisə kimi yanaşır, yalnız insan nəslinə şamil edirlər.

Tərbiyəyə müxtəlif təriflər verirlər: "Tərbiyəçinin tərbiyə olunana məqsədyönlü təsiri", "uşaqda bu və ya digər keyfiyyəti (*böyüyə hörmət, düzlük və doğruçuluq, vətənpərvərlik, xeyirxahlıq, humanistlik, qəhrəmanlıq, mübarizlik və s.*) inkişaf etdirmək üçün ona göstərilən təsir", "yaşlı nəslin qazandığı sosial təcrübənin gənc nəslə ötürülməsi" və s.

Həmin təriflər tərbiyə prosesinin mahiyyətinə bu və ya digər dərəcədə aydınlıq gətirir. Bir qədər də dəqiq ifadə etməli olsaq, tərbiyəyə belə tərif verə bilərik: tərbiyə dedikdə, bu və digər keyfiyyəti inkişaf etdirmək, davranış təcrübəsini formalaşdırmaq üçün tərbiyəçinin (*valideynin, müəllimin*) tərbiyə olunana (*uşağa, şagirdə*) mütəşəkkil, məqsədyönlü, planlı, sistemli və fasiləsiz təsir göstərməsi prosesi başa düşülür.

Tərbiyə latıncada *education;* ruscada *воспитание*, ingiliscədə *upbringing,* almanca *der benehmität (yaxşı maneralar, özünü saxlaya bilmək);* fransızcada *le éducation* – tərbiyə, böyütmə*;* italyancada – *educazione;* türkcədə *eğitim;* ukrayncada *виховання;* beloruscada *выхаванне;* albancada *arsim;* macarca *oktatás;* indoneziyaca *pendidikan;* ispancada *educación;* norvec dilində utdanning; frumıncada educație; serbcədə – образовање; fin dilində koulutus; xorvat dilində obrazovanje; estoncada-haridus deməkdir.

*"Tərbiyə"* sözü ərəbcə *"əl-tərbiyə"* sözünün *"rəbb"* kökündən əmələ gəlib. O, üç mənanı ifadə edir: *"Rəba"* – doğru yol göstərmək; *"Rəbi"* – bəsləmək, yetişdirmək, böyütmək, tamamlamaq; "*riba"* – çoxaltmaq. *"Rəbb"* Allahın 99 adından biri olub. "Quranda"da Allah sözündən sonra ən çox (935) işlənən sözdür. Mənası *"tərbiyə edən", "nemət verən", "maddi və mənəvi kamilliyə doğru yönəldən", "ərsəyə çatdırma"* deməkdir. *"Mürəbbi"* sözü də *"rəbb"* kəlməsindən əmələ gəlmişdir. *"Ərsəyə çatdırma"* dedikdə, uşağın sərbəst yaşamaq, öz taleyi haqqında düşünməyi bacarmaq və davranışını sərbəst olaraq qaydaya salmaq, dünyaya münasibətdə müstəqil dərketmə qabiliyyətinə yiyələnmək səviyyəsinə çatdırmaq mənası başa düşülür (1, s. 5).

"Tərbiyə" son dərəcə geniş anlayışdır. Çox zaman "təhsil" və "təlim" də onun tərkibində nəzərdən keçirilir, hətta pedaqogikaya tərif verərkən ona "tərbiyə" haqqında elm kimi yanaşırlar. Bu, görünür, təhsil və təlim anlayışlarına nisbətən tərbiyə anlayışının daha erkən meydana gəlməsi ilə bağlıdır. İlk insanlar məhz tərbiyə edədə övladlarına bilik, bacarıq, vərdişlər qazandırırdılar. Qeyd etdiyimiz kimi, ingilis dilində "*education*" sözü var. O eyni zamanda həm tərbiyə, həm təhsil, təlim, maarif, həm də ən əsası, "pedaqogika" mənasını verir. Əslində tərbiyə ingiliscədə "upbringing" sözü ilə ifadə olunur.

Bu gün çox təlatümlü bir dövrdə yaşayırıq. Belə bir vaxtda, təbii ki, tərbiyə prosesini köhnə sxemlər, modellər üzrə qurmaq olmaz. Biz cəmiyyətdən ayrı yaşamırıq və cəmiyyətdə baş verən dəyişikliklərə biganə qala bilmərik. Eyni zamanda həmin dəyişikliklər bu və ya digər dərəcədə hər bir şəxsin həyatına da öz təsirini göstərir.

Müasir mərhələdə gənc nəslin milli mənlik şüurunun formalaşdırılması, milli şərəf və ləyaqət hissinin inkişaf etdirilməsi qayğısına qalmaq lazımdır. Vətənini, millətini sevmək heç də, vaxtilə zənn olunduğu kimi millətçilik deyildir. Milli mənliyi, milli ləyaqəti olmayan vətən övladı, sözün həqiqi mənasında, beynəlmiləlçi ola bilməz. Öz xalqını, vətənini sevməyən şəxs, heç vaxt başqa xalqı, milləti də ürəkdən sevməz. Bir zamanlar ateizm tərbiyəsi dəbdə idi. Keçmiş ittifaqda, o, cümlədən respublikamızda bir tərəfdən Konstitusiya ilə "vicdan azadlığı" elan edilir, digər tərəfdən dini mərasim və ayinlərin icrasına hər vəchlə maneçilik törədilir, dinə, Allaha inananlar sıxışdırılırdı. Ötən əsrimizin ortalarında, hətta "allahsızlar" cəmiyyətləri fəaliyyət göstərirdi. Xüsusən gənclər və məktəblilər arasında antidin təbliğat, ateizm tərbiyəsi geniş şəkildə aparılırdı. Özü də başqa dinlərlə müqayisədə İslam dininə hücum daha güclü idi.

Hazırda cəmiyyətimizdə dinə münasibət kökündən dəyişmişdir. İslam dini ən mütərəqqi dindir. “Qurani-Kərim”, Məhəmməd peyğəmbərin hədisləri, həzrəti Əlinin kəlamları, böyük övliyaların söyləmələri, Zəlimxan Yaqubun “Peyğəmbər” poeması nəşr olunmuşdur. Televiziya ilə “Allahın elçisi”, “Həzrəti İbrahim”, “Həzrəti Yusif”, “Niyyət” və s. bu kimi bədii filmlər nümayiş etdirilir. Yeniyetmə və gənclər dindən, dini mədəniyyətdən yox, mövhumatdan, cəhalətdən, cahillikdən çəkinməlidirlər.

Dinimizin müqəddəs kitabı olan “Qurani-Kərim”lə, həzrəti Məhəmməd əleyhissəlamın (s.ə.s.) hədisləri ilə tanış olan hər kəs görər ki, islam dini, heç də bədxahlarımızın söylədikləri kimi, zorakılığı təbliğ etmir, adamları elmə, xeyirxah işlər görməyə, böyüyə, valideynə hörmət bəsləməyə çağırır, insanpərvərlik, Vətənə məhəbbət, mənəvi keyfiyyətlərə yiyələnməyi təbliğ edir. Bir də əgər din gənc nəslin Vətənin ləyaqətli oğlan və qızları kimi tərbiyə olunmasına kömək göstərirsə, niyə onun tərbiyəvi imkannlarından istifadə olunmasın?!

Uzun illər burjua ideologiyasından, ona qarşı mübarizənin zəruriliyindən danışılıb, bolşevizmi, kommunizmi təriflәmişik. İndi isə görürük ki, bəyənmədiyimiz həmin ideoloqlar yaşayış tərzimiz haqqında bir çox şeyləri doğru-düzgün deyirlərmiş. Erməni ideoloqlarının söylədikləri haqsız tələblər isə daha qorxuludur. Onlar tariximizə, mədəniyyətimizə, adət və ənənələrimizə şər atır, onları saxtalaşdırırlar. Artıq burjua ideologiyasına qarşı deyil, məhz erməni ideologiyasına, təbliğatına, erməni saxtakarlığına qarşı mübarizə aparmaq lazım gəlir. Vaxtilə, sovet hakimiyyəti illərində isə bu quldurları yetirən xalqı özümüzə “dost”, “qardaş” sayırdıq.

Əmir Teymurun sözləridir: “Tarix məni iki şeyə görə bağışlamayacaq. Birincisi, erməni millətini tamamilə məhv etmək istədiyim; ikincisi isə, onları məhv etmədiyim üçün. Düzdür ermənilərin içində yaxşıları da var, lakin ümumilikdə onlar murdar millətdirlər. Ermənilər heç vaxt fikirlərini üzə deməzlər. Bu səbəbdən mədəni görünsələr də, onlar üçün uyğun zamanda xəncəri kürəyə sancarlar”.

Erməni vəhşiliyi, riyakarlığı, erməni alçaqlığı, satqınlığı, saxtakarlığı, murdarlığı, vəhşiliyi və s. və i.a. haqda bir çox məşhur insanlar fikir söyləmişlər. Onların bəzilərini diqqət mərkəzinə gətirək:

* Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni millәti olmuşdur (Karl Marks).

* Korinfdə və hətta Hindistan məbədlərində qulluq edən ilk rəqqasə və fahişələr erməni kənizləri olmuşlar (Fridrix Engels).

* “Anadolu eskizləri” kitabından: “Bu əyalətlərdə xalqın əsas hissəsi ilə təmasda olan hər bir şəxs, demək olar ki, türkləri sevir və hörmət edir, yunanları aşağı səviyyəyə qoyur, ermənilərə isə nifrət edir. Bu yerdə bir məsəl özünü doğruldur: bir yunan iki yəhudini aldadar, bir erməni isə iki yunanı. Əgər mən türklə iş görürəmsə, onunla yazılı müqaviləyə ehtiyac yoxdur, türkün bir sözü yetər. Yunanla yazılı müqavilə bağlayıramsa, onunla belə işbirliyi vacib və əhəmiyyətlidir. Erməni ilə yazılı heç bir iş görmək olmaz, çünki onların yalan və intriqalarının öhdəsindən hətta yazılı sənəd də gələ bilməz!” (alman Alfred Körte).

* Ermənilər həmişə erməni dinindən fərqli dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə onlar öz fikirlərini, hisslərini və məramlarını gizlədən vücudlara, habelə dələduzlara və fırıldaqçılara çevrilmişlər (Aleksandr Düma).

“Ermənilər gürcülərə mənsub məbəd və monastırlardan gürcüləri qovur və onları məhv edir, daşlarda gürcü yazılarını silirlər, qədim tikililərdən daşları çıxarıb, gürcü yazılarını erməni yazıları ilə əvəz edirlər” (İlya Çavçavadze).

“Sən qulsan, sən qorxaqsan, sən ermənisən” (A.S. Puşkin).

* Bu ermənilər nə qədər murdar millətdirlər (A.S. Qriboyedov) (2).

Hətta ermənilər özləri də özlərini tənqid etmişlər. Diqqət yetirək:

* Ermənilər həqiqəti inkar etməyi xoşlayırlar. Onlar böyük-böyük danışmağı sevən, ikiüzlü millətdir (Erməni tarixçisi Movsey Xorenasi, V əsr).

* “Ermənilər də insandırlar. Amma evdə dördayaqlı gəzirlər” (erməni sovet yazıçısı Petroniy Qay Amatuni)

* “Erməni dilinin yarısı türk, yarısı da fars sözləridir” (X. Abovyan).

* Bizdə riyakarlıq hələ ana bətnindən əmələ gəlir (Yeqişe Çarens) (2).

Budur erməni xisləti, erməni “kişiliyi”.

Müasir mərhələdə özünəqayıdış, milli tərbiyə amili ön planda durur. Biz milli tərbiyədən beynəlmiləl tərbiyəyə doğru getməliyik. Əvvəllər isə beynəlmiləl tərbiyəni milli tərbiyədən əvvələ keçirmişdik. Ailə tərbiyəsi ilə müqayisədə ictimai tərbiyənin rolunu hədsiz şişirtmişdik. Bu gün tərbiyə üzrə aparılan işlər milli zəmində və eyni zamanda dünyada mövcud olan ən mütərəqqi tərbiyə ənənələri əsasında qurulmalıdır.

Dünya xalqlarının hərəsinin özünəməxsus tərbiyə ənənələri, dədə-babadan qalma tərbiyə üsulları var. Onlar özünəməxsus xüsusiyyətləri ilə seçilir.

Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyev deyirdi: "Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Biz indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik...

Hər xalqın öz adət-ənənəsi var, öz milli mənəvi və dini dəyərləri var. Biz öz milli mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət və ənənələrimizlə fəxr edirik. Əsrlərin dərinliyindən bu günümüzə gəlib çatan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir".

Ümummilli liderimiz gəncləri həyatda fəal mövqe tutmağa, vətəndaş mövqeyi nümayiş etdirməyə çağırırdı. Bu xüsusda deyirdi: "Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun".

Heydər Əliyev gənclərə, onların qüvvəsinə, bilik və bacarığına inanır və yüksək qiymətləndirirdi. O, ümumtəhsil məktəbləri şagirdləri ilə "Bilik günü"nə həsr olunmuş tədbirlərdə, ali məktəblərə qəbul olunmuş tələbələrlə görüşlərində gənc nəsli biliklərə əzmlə yiyələnməyə, vətənin ləyaqətli övladları olmağa səsləyirdi: "Bizim məqsədimiz müstəqil Azərbaycanın gələcəyi üçün daha bilikli, zəkalı gənclər hazırlamaqdır... Siz Azərbaycanın gələcəyini təmin edən insanlar olacaqsınız. Azərbaycan gələcəkdə sizin kimi gənclərin, formalaşmış insanların çiyinlərində yaşayacaqdır".

Ümummilli liderimiz gənclərdə yüksək mənəvi keyfiyyətlər tərbiyə etməyi tövsiyə edirdi: "Gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik".

Ulu öndər Heydər Əliyevin dövlətçilik ənənələrinə sadiq qalan və onun kursunu layiqincə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də Azərbaycan təhsilinin dünyanın ən qabaqcıl dövlətlərinin təhsili səviyyəsinə qaldırılmasını, gənclərimizin milli, ümumbəşəri dəyərlərə, yüksək mədəniyyətə yiyələnmələrinə nail olmağı məqsədəuyğun hesab edir. Möhtərəm Prezidentimiz gənclərə böyük inamını ifadə edərək deyir: "Bilikli, savadlı uşaqlar, gənclər gələcəkdə Azərbaycanı idarə edəcəklər".

Heydər Əliyev irsində azərbaycançılıq ideyası xüsusi yer tutur. Ulu öndər respublikamızda yaşayan xalqların vahid ailədə yaşamalarının vacibliyini vurğulayır və diqqətə çatdırırdı ki, Azərbaycan bu ölkədə yaşayan xalqların hamısı üçün Vətəndir: "Biz azərbaycanlıyıq. Hamımızın Vətəni Azərbaycandır. Bizi bir xalq, bir millət, bir insan olaraq bu torpaq ərsəyə gətirmişdir. Buna görə də bizim hər birimizin canında azərbaycançılıq ruhu yaşayır. Bizi bir-birimizə bağlayan və daha çox birləşməyə sövq edən də azərbaycançılıq ruhu, azərbaycançılıq ideyası olmalıdır. Hər bir dövlətin milli ideologiyası olur. Müstəqil Azərbaycan Respublikasının milli ideologiyası da azərbaycançılıq ideologiyasıdır".

Heydər Əliyev xalqımızın mənəviyyatına yüksək qiymət verirdi: "Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır... Bu, həm xalq üçün, millət üçün, hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçündür".

Hər bir xalqın özünəməxsus tərbiyə ənənələrə malik olduğunu hələ vaxtilə K.D. Uşinski də diqqətə çatdırırdı. Onun aşağıdakı fikirləri son dərəcə maraq doğurur: "1. Nəinki həyatda, hətta nəzəriyyədə də bütün xalqlar üçün ümumi olan xalq tərbiyə sistemi yoxdur; alman pedaqogikası da alman tərbiyəsinin nəzəriyyəsidir.

2. Hər xalqın özünəməxsus milli tərbiyə sistemi vardır; ona görə bir xalqın başqa xalqdan tərbiyə sistemlərini əxz etməsi mümkün deyildir.

3. Başqa xalqların tərbiyə işindəki təcrübəsi hamı üçün çox qiymətli bir irsdir; lakin bunu eynilə ümum dünya tarixi təcrübələrinin bütün xalqlara aid olması mənasında başa düşmək lazımdır. Başqa xalqın həyat tərzi nə qədər cazibədar olsa da, onun nümunəsi üzrə yaşamaq mümkün deyildir, eynilə özgə pedaqoji sistemi nə qədər mütəşəkkil və yaxşı düşünülmüş olsa da. o sistemlə tərbiyə olunmaq olmaz. Bu məsələdə hər bir xalq öz qüvvəsini sınamalıdır.

4. Elmi tərbiyə ilə qarışdırmamalıdır. Elm bütün xalqlar üçün ümumidir; lakin o, bütün xalqlar və bütün adamlar üçün həyatın məqsədi nə nəticəsini təşkil etmir" (s. 49-50).

Böyüyən nəslin milli ruhda böyüyüb boya-başa çatmasında, milli adət və ənənələri yaşatmalarında onlar arasında aparılan mənəvi maarifləndirmə işlərinin rolu böyükdür. Bu sahədə valideynlərin, müəllimlərin, ictimaiyyət nümayəndələrini, ictimai təşkilatların üzərinə mühüm vəzifələr düşür. Xalqımız əsrlər boyu maddi və mənəvi xəzinəsini hifz edib saxlamışdır. Həmin xəzinə ilə gənc nəsil yaxından tanış edilməlidir. Milli-mənəvi dəyərlər Azərbaycan xalqının mövcudluğunun mühüm göstəricisi hesab olunur.

Heydər Əliyev heç də təsadüfi olaraq demirdi: "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Ümummilli Liderimiz milli-mənəvi dəyərlərimizin yaşadılması ilə əlaqədar 2001-ci il avqustun 13-də "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatını vermişdi.

Ailədə valideynlər, məktəbdə pedaqoji kollektivin üzvləri şagirdlərin tərbiyəsi qayğısına qalırlar. Nəticədə məktəblinin müsbət mənəvi keyfiyyətləri inkişaf edir, o, nümunəvi davranış təcrübəsinə yiyələnir, intizamı gözləyir. Hələ vaxtilə bu həqiqəti aydın başa düşən Şeyx Şihabəddin Sührəvərdi deyirdi: "Tut yarpağı tədricən atlas olduğu kimi, düzgün təlim-tərbiyə sayəsində hər bir şəxs də get-gedə həqiqi insana çevrilə bilər".

Öz-özünü görmək bacarığı özünütərbiyədə mühüm rol oynayır. Şərqin böyük sənət abidələrindən biri olan "Qabusnamə"də deyilir: "Gərək insan aynaya baxsın, görünüşü yaxşıdırsa, işi də görünüşü kimi yaxşı olmalıdır, çünki gözələ çirkinlik yaraşmaz, buğdadan arpa, arpadan buğda bitməməlidir… Aynaya baxdıqda özünü kifir görsən, yenə yaxşılıq et, çünki, çirkinlik etsən, kifirliyi artırmış olarsan. Bu isə çox pis şeydir. Bir çirkinlik üstünə bir də çirkinlik gəlsən, bir yerdə iki çirkinlik olar" (3).

Gənc nəsildə özünütərbiyə tələbat yaratmaq da milli tərbiyə üzrə işdə az əhəmiyyət daşımır. Özünün qüsurlu tərəflərini görmək bacarığı dünyagörüşünün təşəkkül tapıb formalaşmasında, özünütərbiyə proqramına yiyələnməkdə şagirdə kömək edir. Məktəblilər əsas etibarilə ağlın, iradənin, müsbət mənəvi keyfiyyətlərin inkişafı qayğısına qalır, fiziki kamilliyə can atırlar.

Məhz milli ruhda tərbiyənin, milli adət və ənənələrimizə hörmətin aşılanması sayəsində uşaq və yeniyetmələrimiz, gənclərimizdə vətənpərvərlik hissləri qüvvətləndirir. Onlar ölkəmizin maddi və mənəvi sərvətlərinə görə iftixar hissləri keçirirlər. Vətəni qorumağı özümüzə müqəddəs borc və vəzifə bilirik.

Elə bu səbəbdəndir ki, qısa müddət ərzində, 44 günlük Vətən Müharibəsində Azərbaycan gəncləri, Milli Ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında düşmənlərimizi – erməni faşist işğalçılarını torpaqlarımızdan qovub çıxardılar. Fədakar Ordumuz Ermənistan ordusunu darmadağın etdi.

**Problemin aktuallığı**. Yeni pedaqoji təfəkkür şəraitində uşaq və yeniyetmələrin milli ruhda tərbiyə olunması nəinki lazımdır, hətta vacibdir.

**Problemin yeniliyi**. Məqalədə uşaq və yeniyetmələrin milli ruhda tərbiyə olunması kimi mühüm vəzifə diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılardan ötrü faydalı ola bilər.

**Ədəbiyyat:**


1. F.N. İbrahimov, R.L. Hüseynzadə. Pedaqogika: Dərslik. 2 cilddə. 1-ci cild. Bakı: Mütərcim, 2013.
2. https://news.milli.az/world/425568.html
3. Qabusnamə. Bakı, Kitab evi, 2017.
4. A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. Pedaqogika: Müntəxəbat. Bakı: Mütərcim, 2021.
5. L.A. Məmmədli. Pedaqogika nəzəriyyəsi: Müntəxəbat. Bakı: Mütərcim, 2022.
6. A.N. Abbasov, L.A. Məmmdəli, İ.B. Əmirəliyeva. Pedaqogika nəzəriyyəsi və tarixi. Bakı: Mütərcim, 2022.

4. K.D. Uşinski. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1953.


**E-mail**: prof.akif@mail.ru

**Rəyçilər:** *ped.ü.elm. dok., prof.* **H.Ə. Əlizadə**,
*ped.ü.elm. dok., prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub:** 04.04.2022